# Azərbaycan–Rusiya əməkdaşlığında təhlükəsizliyin və sabitliyin qorunub saxlanılması prioritet istiqamətdir



***Azərbaycan–Rusiya əlaqələri son illər ərzində mehriban qonşuluğa, qarşılıqlı hörmət prinsiplərinə əsaslanan dinamik inkişaf yolu keçib. Hər iki ölkənin dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində münasibətlər strateji tərəfdaşlıq müstəvisində uğurla qərarlaşıb. Şübhəsiz, qarşılıqlı müntəzəm görüşlər də dövlətlərarası münasibətlərə yüksək dinamizm verib, siyasi, sosial-iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli zəmin yaradıb.***

Prezident İlham Əliyevin Aşqabadda Rusiya Prezidenti Vladimir Putin ilə görüşündə də bütün bu məqamlara toxunularaq, əlaqələrimizin davamlı şəkildə genişləndiyi və hazırkı səviyyənin çox yaxşı olduğu bildirilib. Rusiya dövlətinin başçısı söhbətində razılaşdırılan bütün məsələlərin uğurla icra edildiyini vurğulayıb. Eyni zamanda, ticarət dövriyyəsinin getdikcə yaxşılaşdığını, bu sahədə keçən il 16 faizdən çox, cari ilin üç ayının nəticələrinə görə isə 5,5 faiz artım qeydə alındığını bildirib.

Xatırladaq ki, 2024-cü ilə qədər "Rusiya–Azərbaycan əməkdaşlığının əsas istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" da ardıcıl olaraq həyata keçirilir, o cümlədən, altı "yol xəritəsi"nin (ticarət, nəqliyyat infrastrukturu, yüksək texnologiyalı sənayelər, iqtisadiyyatın səmərəliliyinin artırılması, turizm, əməkdaşlıq innovativ inkişaf və rəqəmsal texnologiyalar sahəsində) icrasında da müsbət nəticələr nəzərə çarpır. Rusiya–Azərbaycan regionlararası əməkdaşlığının əhəmiyyəti də son illər ərzində artmaqda davam edib. Bu fəaliyyətə Rusiya Federasiyasının 70-dən çox subyekti cəlb olunub. Onlardan 18-i Azərbaycanla ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında müqavilə bağlayıb.

Aşqabad görüşündə iki ölkə arasında siyasi əlaqələrə toxunan Prezident Vladimir Putin Rusiya xarici işlər nazirinin Bakıya səfərini xatırladıb və Rusiya hökuməti və Dövlət Duması sədrlərinin də Bakıya səfərlərinin planlaşdırıldığını qeyd edib. Rusiya dövlətinin başçısı söhbət zamanı 2024-cü ilə qədər Rusiya–Azərbaycan birgə əməkdaşlıq planının reallaşdırılmasının qarşıda mühüm vəzifə kimi durduğunu, habelə bütün sahələrdə dinamik inkişaf nəzərə çarpdığını bildirib.

Nahar vaxtı qeyri-rəsmi təmas zamanı Prezident İlham Əliyevin ifadə etdiyi fikirləri xatırladan Rusiya dövlətinin başçısı sammitin işgüzar keçdiyini, regional əməkdaşlığın inkişafına dair maraqlı təkliflərin irəli sürüldüyünü də deyib. Dövlətimizin başçısı ilə görüşün faydalı olduğunu bildirən Prezident Vladimir Putin, eyni zamanda, aparılan müzakirələrin ikitərəfli münasibətlərimizin inkişafına əlavə təkan verəcəyinə əminliyini də ifadə edib.

Söhbət zamanı Prezident İlham Əliyev Rusiya rəhbəri ilə indiyədək keçirilən görüşlərin iki dövlət arasında əlaqələrin inkişafına müsbət təsir göstərdiyini, ölkələrimizin dostluq və mehriban qonşuluq münasibətlərinə daha da güclənməsinə töhfə verəcəyinə əminliyini söyləyib. Dövlətimizin başçısı ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasından, eyni zamanda, sənaye kooperasiyası, nəqliyyat və energetika sahələrində əməkdaşlığın genişlənməsindən də məmnunluğunu ifadə edərək, bu görüşün regional məsələlərin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını diqqətə çatdırıb.

Azərbaycan–Rusiya arasındakı münasibətlər, ilk növbədə, bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlığa söykənir. Bununla bağlı son illərdə iki dövlət arasında imzalanan "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat", "Rusiya–Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" və "Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında 2024-cü ilədək Əməkdaşlıq Proqramı" kimi sənədlər həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri baxımından mühüm önəm daşıyır, başqa sözlə, ölkələrimiz arasında siyasi dialoqu, ticari-iqtisadi inkişafı, investisiya qoyuluşu məsələlərini, yeni nəqliyyat dəhlizlərinin yaradılması, mədəni, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi və digər sahələr üzrə yol xəritələrini özündə əks etdirir.

İki dövlət arasında iqtisadi münasibətlər isə xüsusi əhəmiyyətə malikdir. Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Yəni, əslində bu, ölkələrimiz arasında əməkdaşlığın miqyasının və əhəmiyyətinin bariz ifadəsidir.

Ümumiyyətlə, son illərdə Azərbaycan–Rusiya arasında birgə keçirilən görüşlər, fikir mübadilələri Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsi üçün mühüm önəm daşıyıb. Dövlətimizin başçısı bu məsələ ilə əlaqədar çıxışlarının birində deyib: "Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinlə mənim çoxsaylı görüşlərim bizim dostluq, mehriban qonşuluq əlaqələrimizin daha da möhkəmlənməsində çox mühüm rol oynayıb. Münasibətlərimizin çox geniş gündəliyi daim diqqətdə saxlanılıb və əlaqələrimizin bütün istiqamətlər üzrə durmadan inkişaf etməsinə xüsusi əhəmiyyət verilib".

Prezident İlham Əliyev əlaqələrimizin inkişafı baxımından bu yaxınlarda Rusiya xarici işlər nazirinin Azərbaycana səfərinin önəmini xatırladıb və ikitərəfli münasibətlərin ölkələrimiz və xalqlarımız naminə bundan sonra da uğurla inkişaf edəcəyini qeyd edib. Yeri gəlmişkən, Prezident İlham Əliyev iyunun 23-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edərkən, aparılan söhbətin məzmununda da iki ölkə arasında yaranan əlverişli siyasi, sosial-iqtisadi şəraitin mövcudluğu diqqət çəkib.

Dövlətimizin başçısı çıxışında cari ilin əvvəlində Rusiyaya rəsmi səfəri ilə Azərbaycanla bu ölkə arasında münasibətlərin yeni mərhələyə daxil olduğunu, Rusiya rəhbəri Vladimir Putinlə birgə imzaladığı "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin ikitərəfli münasibətlərə yeni siyasi məzmun gətirdiyini bildirib. Azərbaycan Prezidenti deyib: "Moskvada Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə nin imzalanması bizim münasibətlərə, münasibətlərimizin yeni mərhələsinə yaxşı start, belə möhkəm əhəng, dinamika verdi. Hesab edirəm ki, bizim münasibətlərimizin gələcək inkişafı üçün bu əsas sənəd çoxillik, çox səmərəli əməkdaşlığın gözəl yekunudur. Bəyannamənin müddəalarının implementasiyası çərçivəsində artıq xeyli iş görülüb. Əminəm ki, sizin səfəriniz çərçivəsində bu istiqamətdə yeni addımlar atılacaq. Əlamətdar haldır ki, diplomatik münasibətlərin yaradılmasının 30-cu ilində biz görülmüş bütün işlərə müəyyən mənada yekun vurduq və dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafının sonrakı istiqamətlərini müəyyən etdik".

Rusiya Federasiyanın xarici işlər naziri Serqey Lavrovun Azərbaycana səfəri çərçivəsində iki ölkənin xarici işlər nazirləri tərəfindən 24 iyun 2022-ci il tarixdə imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"in mühüm önəm daşımasını da diqqətə çatdırmaq istərdik.

Tərəflər bu sazişə əsasən, təhlükəsizlik və sabitliyin qorunub saxlanılması, suverenliyə, ərazi bütövlüyünə, dövlət sərhədlərinin təhlükəsizliyinə və toxunulmazlığına qarşılıqlı hörmət bəslənilməsi, mübahisə və münaqişələrin sülh yolu ilə tənzimlənməsi, həmçinin ikitərəfli əməkdaşlıq və dövlətlərin informasiya resurslarına müdaxilənin qarşısının alınması prinsipləri də daxil olmaqla, beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına uyğun fəaliyyətin gerçəkləşdirilməsi öhdəliklərini götürürlər.

Burada onu da xatırladaq ki, Azərbaycan dövlətimizin xarici siyasətinin ana xəttini təşkil edən heç bir ölkənin daxili işlərinə qarışmamaq kimi prinsipə hər zaman olduğu kimi, bu gün də mühüm önəm verir. Eyni zamanda, qarşılıqlı olaraq, heç bir ölkəyə də daxili işlərimizə müdaxilə olunmamasını istəyir. Hazırda isə belə bir fəaliyyətin "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"lə reallaşdırılması böyük əhəmiyyətə malikdir.

Adı çəkilən saziş Rusiya və Azərbaycan arasında bu dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə, vətəndaşların təhlükəsizliyinə təhdid yaradan, separatçılıq və ekstremizmin təbliğinə yönələn halların informasiya-kommunikasiya texnologiyalarından istifadəsi ilə mübarizəni nəzərdə tutur.

Rusiya–Azərbaycan münasibətlərinin strateji əhəmiyyəti ilə bağlı bir məqama da diqqət yetirmək istərdik. Bu, iki ölkə əməkdaşlığının regional təhlükəsizliyə strateji töhfələr verməsidir. Mövcud resurs və potensialları ilə həm Azərbaycan, həm də Rusiya regionda təhlükəsizlik sisteminin təminatı baxımından olduqca mühüm təsir imkanlarına malikdirlər. Rusiya–Azərbaycan münasibətləri regionda strateji təhlükəsizlik balansını təmin etmək iqtidarında olmaqla yanaşı, əməkdaşlıq və tərəfdaşlıq münasibətləri üçün də əhəmiyyətli zəmin rolunu oynamaqdadır.

Sonda onu da deyək ki, İkinci Qarabağ müharibəsində hərbi əməliyyatların dayandırılması ilə bağlı Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladıqları üçtərəfli Bəyanat hazırda Cənubi Qafqazın kompleks şəkildə inkişafı üçün geniş imkanlar açıb, iqtisadi əlaqələrin genişlənməsinə, nəqliyyat və kommunikasiyaların açılmasına, yeni infrastruktur marşrutlarının yaradılmasına əlverişli zəmin yaradıb.

Bütün bunlar Rusiya–Azərbaycan münasibətlərinin dinamik, davamlı inkişafa malik olduğunu göstərir. Bəzi ermənipərəst qüvvələr isə tərəflər arasındakı regional sabitlik, təhlükəsizlik və inkişafa xidmət edən münasibətlərin pozulmasında maraqlıdırlar. Amma əminliklə söyləmək olar ki, Rusiya-Azərbaycan münasibətlərinin pozulmasında maraqlı olan qüvvələrin cəhdləri iflasa məhkumdur.

*"Xalq qəzeti"*